31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜDÜR!

51 (1357) • 26 dekabr 2024-cü il • 8 yanvar 2025-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

"GƏLƏN İL VƏ ONDAN SONRAKI İLLƏRDƏ İDMANIN İNKİŞAFI ÜÇÜN NƏ LAZIMDIRSA, O DA EDİLƏCƏK"

"İdmançılarımız Azərbaycan xalqını öz qələbələri ilə daim sevindirirlər. Əlbəttə ki, gələn il və ondan sonrakı illərdə idmanın inkişafı üçün nə lazımdırsa, o da ediləcək. Çünki Azərbaycan dövlətinin siyasəti bu istiqamətdə çox açıqdır, birmənalıdır və uzun illər ərzində aparılır". Bu barədə Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı bildirib.

İdmanın cəmiyyətimizin ayrılmaz hissəsi olduğunu qeyd edən dövlətimizin başçısı deyib ki, xüsusilə gənc nəslin yetişdirilməsi, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır.



"AZƏRBAYCAN GÜCLÜ DÖVLƏTDİR, LƏYAQƏTLƏ, VİCDANLA İRƏLİYƏ GEDƏN BİR ÖLKƏDİR"

"Azərbaycan güclü dövlətdir, öz gücünə əsaslanan, öz yolu ilə gedən, heç kimin qarşısında heç bir öhdəliyi olmayan, heç kimin qabağında baş əyməyən, ləyaqətlə, vicdanla irəliyə gedən bir ölkədir və bu, bizim böyük sərvətimizdir". Bu fikri Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı səsləndirib.

Bu gün dünyada gedən proseslərin göz qabağında olduğunu söyləyən dövlətimizin başçısı qeyd edib: ***"Qanlı toqquşmalar, müharibələr, münaqişələr, bəzi ölkələrin digər ölkələrin işlərinə kobud-casına qarışması, vəziyyətin gərginləşməsi - bütün bunları biz Azərbaycanda görmürük və görməyəcəyik".***

"GƏNCƏDƏ ÇOX BÖYÜK TƏMİR-BƏRPA İŞLƏRİ APARILACAQ"

Bu barədə Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı bildirib.



Dövlətimizin başçısı deyib ki, həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin.

"BİZİM İCRA ETDİYİMİZ LAYİHƏLƏRİN DÜNYADA MİSLİ-BƏRABƏRİ YOXDUR VƏ BƏLKƏ DƏ OLMAYACAQ"

"Orada (işğaldan azad edilmiş ərazilərdə - red.) həyat yenidən, sıfırdan qurulur. Bizim icra etdiyimiz layihələrin dünyada misli-bərabəri yoxdur və bəlkə də olmayacaq".

Bu sözləri Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışında deyib.

"Böyük coğrafiyada, 15-16 min kvadratkilometr ərazidə, - hansı ki, Ermənistan onu tamamilə yerlə-yeksan edib, - yeni həyat qurulur, özü də müasir, gözəl, rahat", - deyə dövlətimizin başçısı əlavə edib.

Gürcüstan parlament nümayəndə heyəti Milli Məclisdə olub



Milli Məclisin Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri dekabrın 24-də Gürcüstan Parlamentinin Gənclər, elm və təhsil məsələləri komitəsinin sədri Givi Mikanadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev iki ölkənin dostluq və mehriban qonşuluq münasibətlərindən söz açıb. Komitə sədri qanunverici orqanlarımız arasında əməkdaşlığın dinamik inkişaf etdiyini deyib, parlament sədrlərinin qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin bu istiqamətdə mühüm əhəmiyyət daşıdığını bildirib. O, parlamentlərimizin dostluq qrupları, komitələri arasında münasibətlərin dərinləşdirilməsi ilə bağlı fikirlərini bölüşüb. Gürcüstan parlamentinin Gənclər, elm və təhsil məsələləri komitəsinin sədri Givi Mikanadze əlaqələrimizin genişlənməsində qanunverici orqanların rolundan, dostluq qruplarının səmərəli əməkdaşlığından danışıb. O, ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığını yüksək qiymətləndirib, regionda sülhün və əməkdaşlığın möhkəmləndirilməsinin xalqlarımızın mənafelərinə cavab verdiyini vurğulayıb.

Söhbət zamanı Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Rasim Musabəyov və Gürcüstan Parlamentinin Regional siyasət və yerli özünüidarə komitəsinin sədri İrakli Kadagişvili regional əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikirlərini bildiriblər.


"AZƏRBAYCAN İDMAN DÖVLƏTİ KİMİ ÖZ GÜCÜNÜ MÜXTƏLİF BEYNƏLXALQ YARIŞLARDA TƏSDİQLƏYİR"



"2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur. Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır".

Bu sözləri Prezident İlham Əliyev dekabrın 24-də 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı söyləyib.

Bunun idmanımızın inkişafını göstərdiyini vurğulayan dövlətimizin başçısı qeyd edib: ***"Yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir".***



Azərbaycan Prezidenti təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib.

Dövlətimizin başçısı bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: ***"Azərbaycan Hava Yolları" şirkətinə məxsus Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğaması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirəm".***



Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi dekabrın 25-də Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Birinci vitse-prezident Mehriban Əliyeva baş vermiş təyyarə qəzası ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Aktau yaxınlığında baş verən təyyarə qəzası ilə bağlı paylaşım edib.

Paylaşımda deyilir: "Aktau yaxınlığında təyyarə qəzası nəticəsində insanların faciəli şəkildə həlak olması xəbəri məni dərindən sarsıtdı. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara güc və səbir diləyirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram. Uca Allah xalqımızı bütün bəlalardan və bədbəxtliklərdən qorusun!".

Qeyd edək ki, "Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi dekabrın 25-də səhər saatlarında Aktau yaxınlığında qəzaya uğrayıb.

Baş vermiş hadisəni yerində araşdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə rəqəmsal inkişaf və nəqliyyat naziri, fövqəladə hallar naziri, baş prokurorun müavini, səhiyyə nazirinin müavini, Dövlət Mülki Aviasiya Agentliyinin direktorunun müavini, AZAL-ın vitse-prezidenti və digər aidiyyəti dövlət orqanlarının nümayəndələri Qazaxıstanın Aktau şəhərinə yola düşüblər.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün dövlət komissiyası yaradılıb.

ARDNF-nin vəsaitlərinin idarə edilməsindən əldə olunan gəlirlər 15 milyard dolları ötüb

Dövlət Neft Fondunun 25 illik yubileyinə həsr olunmuş illik yığıncaq keçirilib.

Bu il təsis olunmasının 25-ci ildönümünü qeyd edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "Milli sərvətdən dayanıqlı inkişafa doğru" şüarı altında illik yığıncağı keçirilib.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində hazırlanan milli neft strategiyasının bir hissəsi olaraq və Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan ARDNF ötən müddət ərzində Azərbaycanın davamlı inkişafına və iqtisadi potensialının möhkəmləndirilməsinə dəyərli töhfələr verən mühüm qurumlardan birinə çevrilib.



Tədbirdə çıxış edən ARDNF-nin İcraçı direktoru İsrafil Məmmədov Fondun ötən 25 ildə keçdiyi inkişaf yolundan, əldə olunmuş mühüm uğurlardan və gələcək planlardan söz açıb. Bildirib ki, 1999-cu ildə əsası qoyulan Dövlət Neft Fondunun hazırkı aktivləri 60 milyard ABŞ dollarını keçərək, ölkə iqtisadiyyatının təxminən 80 faizinə bərabər olmuşdur. Bununla yanaşı, Fondun vəsaitlərinin idarə edilməsindən əldə olunan gəlirlər artıq 15 milyard ABŞ dollarını ötüb. Bu rəqəmlər Dövlət Neft Fondunun uğurlu fəaliyyət modelinə, strateji yanaşmasına və beynəlxalq standartlara əsaslanan risk idarəetmə mexanizminə söykənən investisiya siyasətinə dəlalət edir.

Fond təkcə maliyyə nəticələrini yaxşılaşdırmaqla kifayətlənmir, eyni zamanda, Azərbaycanın qlobal iqtisadi müstəvidə mövqeyini möhkəmləndirən layihələrə investisiya qoymaqla, davamlı inkişafa və gələcək nəsillərin mənafeyinə xidmət edən əsas maliyyə dayaqlarından biri kimi çıxış edir.

Nazirlər Kabineti maliyyə bazarları ilə bağlı qərar verib

Nazirlər Kabineti "Maliyyə bazarlarında təmərküzləşmədə iştirak edən maliyyə institutları tərəfindən rəqabət orqanından razılıq alınmasını şərtləndirən meyarları (təmərküzləşmədə iştirak edən maliyyə institutlarının aktivlərinin ümumi dəyərinin, ümumi dövriyyəsinin həcmi"ni) təsdiq edib. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Bu sənəd Rəqabət Məcəlləsinə əsasən hazırlanıb və maliyyə bazarlarında təmərküzləşmədə iştirak edən maliyyə institutları tərəfindən rəqabət orqanından razılıq alınmasını şərtləndirən meyarları (təmərküzləşmədə iştirak edən maliyyə institutlarının aktivlərinin ümumi dəyərini, ümumi dövriyyəsinin həcmini) müəyyən edir. Bu sənəddə istifadə olunan anlayışlar Məcəllədə və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun daşıma qabiliyyəti 10 milyon tona çatdırılacaq



Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun hazırkı ötürücülük gücü 6 milyon ton təşkil edir. Bu barədə Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev məlumat verib. Onun sözlərinə görə, son 4 ildə bu dəhliz üzrə daşımaların həcmi 800 min tondan 4,1 milyon tonadək artıb ki, bu da 5 dəfə artım deməkdir. Bu müddət ərzində malların çatdırılma müddəti 58-60 gündən 13-15 günə endirilib.

"Dəhlizin gələcək inkişafı üçün Azərbaycan, Türkiyə və Gürcüstanla birlikdə daşıma prosesi zamanı yaranan maneələrin aradan qaldırılmasına yönəlmiş yol xəritəsi təsdiq edilib. Bizim yaxın məqsədimiz marşrutun ötürücülüyünü 10 milyon tona çatdırmaqdır", - deyə nazir vurğulayıb.

Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çini Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropa ölkələri ilə birləşdirir.

Azərbaycan-Türkiyə İş Adamları Birliyinin təşkilatçılığı ilə konfrans keçirilib



Dekabrın 23-də Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) tərəfindən "Əmək münasibətləri, əməyin mühafizəsi və insan resursları ekologiji, sosial və korporativ idarəetmə yanaşmasının (ESG) əsas istiqamətlərindən biri kimi" mövzusunda konfrans keçirilib.

Tədbirdə Milli Məclisin deputatları, Türkiyənin ölkəmizdəki səfirliyinin müşavirləri, dövlət qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri və iş adamları iştirak ediblər.

Konfransda çıxış edən ATİB-in İdarə Heyətinin sədri Mürsəl Rüstəmov, Şimali Kipr Türk Respublikasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Arca Turganer mövzunun sahibkarlar üçün əhəmiyyətindən danışıb, dövlət başçısının növbəti onillik üçün qarşıya qoyduğu "Rəqabətli insan kapitalı" Milli Prioritetinə çatmaq üçün bu növ tədbirlərin vaxtaşırı təşkilinin önəmini vurğulayıblar.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov çıxışında Agentliyin təşəbbüsü ilə hazırlanmış və yaxınlarda Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən qəbul olunmuş "AZS IWA 48:2024 "Ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqi üzrə çərçivə" dövlət standartı barədə məlumat verərək, bizneslərin ESG prinsiplərinə riayət etməsinin biznes proseslərinin optimallaşmasına, istehsal xərclərinin azaldılmasına, rəqabət qabiliyyətinin yüksəldilməsinə, ixrac potensialının artırılmasına və xüsusilə, xarici investisiyaların cəlb edilməsinə imkan verəcəyini diqqətə çatdırıb.

Sosial yardım nə qədər artacaq?

"Azərbaycan Prezidenti 2024-cü il üçün ehtiyac meyarı həddini təsdiq edib. Gələn ildən etibarən ehtiyac meyarı 270 manatdan 285 manata çatdırılacaq. Yeni ehtiyac meyarının müəyyənləşdirilməsi ünvanlı sosial yardımın aylıq məbləğinin artırılması və müraciətin genişləndirilməsi baxımdan vacibdir".

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov sosial şəbəkə hesabında bildirib.

Deputat qeyd edib ki, bu kontekstdən ehtiyac meyarının artırılması ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşlarımızın aldığı yardım məbləğinin gələn ildən artmasına da səbəb olacaq:



"Ehtiyac meyarı artırıldığı üçün daha çox ailə ünvanlı sosial yardıma müraciət edə biləcək. Aydınlıq üçün: ailənin 5 üzvü var və həmin ailənin aylıq rəsmi gəliri 900 manatdır. Bu il həmin ailə üçün 1350 manat (5 nəfər X 270 manat) ehtiyac meyari, yəni xərc hesablanır. Bu zaman ailənin xərci ilə gəliri arasındakı fərq 450 manat (1350 manat- 900 manat) olur. Həmin ailənin ünvanlı sosial yardıma müraciət hüququ olduğu halda o proqram çərçivəsində ayda dövlətdən 450 manat yardım ala bilir. Amma bu rəqəm gələn ildən artacaq.

Belə ki, həmin ailə üçün ehtiyac meyarı gələn ildən 1425 manata yüksəlir (5 nəfər X 285 manat). Nəticədə həmin ailənin gəliri dəyişmədiyi halda aldığı aylıq yardım 450 manat deyil, 525 manat (1425 manat- 900 manat) olur. Bu artım sosial qayğıya ehtiyacı olan ailələrin daha yaxından dəstəklənməsinə xidmət edir".

Birinci APFM AWARDS mükafatları təqdim edilib





14 dekabr 2024-cü il tarixində Arena Hall by Green City-də Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının (APFM) təşkilatçılığı ilə 1-ci APFM AWARDS mükafatlarının təqdimat mərasimi keçirilib.

Tədbirdə APFM-in sıx əməkdaşlıq etdiyi dövlət və özəl - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Neft fondu, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB və digər qurumların nümayəndələri, eləcə də APFM-in korporativ üzvləri - ictimai əhəmiyyətli qurumlar - SOCAR, Azərişıq, Azərenerji, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi, Azərsun, Azfen, Paşa Bank, Kapital Bank, ABB, Xalq Bank, Bank Respublika, Yelo Bank və digər təşkilatların əməkdaşları, APFM-in fərdi üzvləri - 150-dən çox təşkilatın maliyyə menecerləri və peşəkar mühasibləri iştirak ediblər.

Tədbirin açılışı xüsusi hazırlanmış videoçarxla başlayıb. Videoçarxda APFM-in yaranma tarixi, fəaliyyəti və nailiyyətləri əks etdirilib.

APFM ailəsinin fəxri üzvü - akademik Ziyad Səmədzadə açılış nitqi ilə çıxış edib. O öz çıxışında tədbirin əhəmiyyətini vurğulayıb və iştirakçılara təşəkkürünü bildirib.

APFM-in üzv olduğu IFAC - Beynəlxalq Mühasiblər Federasiyasının rəhbərliyi tərəfindən göndərilmiş təbrik videoçarxı nümayiş etdirilib.

Sonra tədbir iştirakçıları APFM üzvlərinin uğurla başa vurduğu 2024-cü ilin mühüm hadisələrini əks etdirən videoçarxı izləyiblər.

Daha sonra tədbirin ən gözlənilən anı – 1-ci APFM AWARDS mükafatlandırma mərasimi keçirilib. Mükafatları APFM-in idarə heyətinin sədri Nuriyyə Novruzova təqdim edib. O, tədbir iştirakçılarına öz dərin təşəkkürünü bildirib və hər bir qalibin peşəkarlıq yolunda göstərdiyi səyləri yüksək qiymətləndirib.

APFM AWARDS mükafatlandırma mərasimi peşəkarlar üçün yeni uğurların başlanğıcı olmaqla yanaşı, peşəkarlıq, innovasiya və liderliyin göstəricisidir. Tədbirin hər il keçirilməsi nəzərdə tutulur.

Təqdim olunmuş mükafatlar:

For Contribution to Economic Enlightenment - Ziyad Səmədzadə, APFM Məsləhət Şurasının üzvü, akademik;

Partner of the Year 2024 - Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi;

Financial Director of the Year 2024 - Namiq Orucov, Azərişıq ASC, maliyyə direktoru;

Financial Manager of the Year 2024 - Səidə Əliyeva, Mərkəzi Neftçilər xəstəxanasının maliyyə meneceri;

Chief Accountant of the Year 2024 - İmaməli Həsənov, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Maliyyə və uçot departamentinin rəis müavini;

Accounting Specialist of the Year 2024 - Qabil İsmayılov, "Azərenerji"nin baş mühasibi;

Finance Professional of the Year 2024 - Bəxtiyar Səmədov, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Maliyyə şöbəsi, Əməliyyatlar və mühasibat uçotu sektorunun müdiri;

Risk Manager of the Year 2024 - Ramil Bayramov, APFM Risk komitəsinin sədri, SOCAR Karbamid zavodu, Risklərin idarə olunması üzrə menecer;

Financial Analyst of the Year 2024 - Orxan Seyidzadə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Maliyyə şöbəsinin maliyyə hesabatlarının icmallaşdırılması sektorunun müdiri;

Tax Manager of the Year 2024 - Rəşad Əhmədov, APFM Qanunvericilik Komitəsinin sədri, Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin Vergi Qanunvericiliyi şöbəsinin rəisi;

Budget Manager of the Year 2024 - Sənan Fətəliyev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Maliyyə Departamenti, Büdcə planlaşdırılması və icraya nəzarət şöbəsinin baş məsləhətçisi;

Professional Accountant of the Year 2024 - İlqar Eyyubov, Mpay şirkətinin Maliyyə direktoru;

Internal Auditor of the Year 2024 - İlkin İsmayıllı, APFM Komitə üzvü, Azərpoçt MMC-nin daxili auditoru;

Financier of the Year 2024 - Emin Kazımov, APFM Komitə üzvü, İstehlak Mallarının Ekspertizası Mərkəzinin Maliyyə və Təsərrüfat departamentinin müdiri;

Training Centre of the Year 2024 - Finans Academy;

Tutor of the Year 2024 - Aslan Məcidov, APFM-in Komitə üzvü və peşəkar təlimçisi;

Consultant of the Year 2024 - Fuad Cavadov, Proqres Balans konsaltinq şirkətinin baş direktoru, APFM Komitə üzvü;

Member of the Year 2024 - Mariya Həmzəbəyova;

Company of the Year 2024 - Baku Oxford School;

Bank of the Year 2024 - Bank Respublika;

Finansist Interviewer of the Year 2024 - Ramil Qədirov, SOCAR Neft-qaz Elmi Tətqiqat Layihə İnstitutu, İqtisadiyyat və uçot departamentinin rəis müavini;

Student of the Year 2024 - Sədaqət Süleymanova.





MİDA-nın güzəştli mənzilləri üzrə 233 milyon manatlıq ipoteka krediti verilib

Azərbaycan Dövlət İpoteka və Kredit Zəmanət Fondu (İKZF) Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan güzəştli mənzillərin satışının dəstəklənməsi üçün 2018-ci ildən etibarən 4802 şəxsə 233,1 milyon manat həcmində güzəştli ipoteka krediti verib.



Bunu İKZF-nin İpoteka kreditləri departamentinin direktoru Rasim Abdullayev deyib.

O bildirib ki, 82 şəxsə isə 3,6 milyon manat məbləğində adi ipoteka krediti verilib.

"Agentliyin sərəncamında olan mənzillərin 70%-dən çox hissəsinin satışı Fondun xətti ilə verilən güzəştli ipoteka krediti vasitəsilə həyata keçirilib", - deyə Rasim Abdullayev əlavə edib.

Elektron satınalmaların həcmi 3 dəfə artıb

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin məlumatında bildirilir:

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin yaydığı məlumatda bildirilir ki, ölkədə dövlət satınalmaları sisteminin məxfi satınalmalar istisna olmaqla elektronlaşdırılması nəticəsində cari ilin yanvar-noyabr aylarında rəqabətlilik və hesabatlılığın artırılması istiqamətində müsbət nəticələr əldə olunub.

Hesabat dövrü ərzində elektron satınalmaların həcmi 3 milyard 511,2 milyon manat təşkil edib. Ötən ilin müvafiq dövrü (1 milyard 267,3 milyon manat) ilə müqayisədə 3 dəfəyədək artım qeydə alınıb.

Cari il ərzində elektron satınalmalarda qənaət edilən dövlət vəsaitlərinin məbləği 559,7 milyon manat təşkil edib. Dövlət satınalmalarında nəzarət tədbirlərinin gücləndirilməsi, əlçatanlığın təmin edilməsi və bürokratik əngəllərin aradan qaldırılması ilə bazar subyektlərinin iştirak səviyyəsinin yüksəlməsinə nail olunub.

Dövlət Xidməti müsabiqə və aşkarlıq əsasında bütün sahibkarların bərabər şərtlərlə dövlət satınalmalarında iştirakını hədəfləyən tənzimləyici tədbirlərini cari il ərzində də davam etdirib. Satınalan təşkilatlar tərəfindən müxtəlif maneələrin yaradılması ilə əlaqədar Dövlət Xidmətinə daxil olan 1270 müraciətə baxılıb. Hesabat dövründə keçirilmiş müsabiqələrin nəticələri barədə 13 477 yekun protokol təhlil olunub.

Nəticədə, müsabiqə zamanı qanunvericiliyin tələblərinin pozulması halları aşkar olunan 1790 yekun protokol (13,3%) Dövlət Xidməti tərəfindən ləğv edilib.

Cəbrayıl şəhərinə növbəti köç karvanı yola salınıb

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Cəbrayıl şəhərinə 49 ailə - 253 nəfər köçürülüb.

2025-ci ildə Ələt limanında terminal tikintisinə başlanılacaq

Ələt limanı, Moskva yaxınlığındakı Selyatino kəndi, Belarusun Svisloç stansiyası və Daşkənddə terminalların tikintisi məsələsi üzərində iş gedir.

Bu barədə Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev məlumat verib.

"Bu obyektlərin tikintisinə gələn il başlanılacaq", - deyə nazir bildirib. Onun sözlərinə görə, yeni terminalların ümumi gücü ildə bir milyon 200 min konteyner təşkil edəcək.

"Gələcəkdə Rumıniyanın Konstansa, Macarıstanın Budapeşt və Çinin Urumçi şəhərlərində birgə terminalların yaradılması planlaşdırılır. Nəticədə xarici terminalların tutumu 5 dəfə artacaq ki, bu da yük axınlarını formalaşdıran əsas ölkələrdən yüklərin Qazaxıstanın nəqliyyat dəhlizlərinə cəlb edilməsinə imkan verəcək", - deyə nazir vurğulayıb.



Ağdam Sənaye Parkında yeni rezident qeydiyyata alınıb



"Met Invest2" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti statusu verilib, bununla da Sənaye Parkının rezidentlərinin sayı 29-a çatıb.

Agentlikdən bildirilib ki, yeni rezident tərəfindən Sənaye Parkının ərazisində metal məmulatların istehsalı layihəsi həyata keçiriləcək. Layihə çərçivəsində illik istehsal gücü 144 min ton olan armatur, künclük və polad məftil istehsalı zavodu inşa ediləcək. İnvestisiya dəyəri 18 milyon manat olan müəssisədə 150 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

Avropa, Türkiyə, Çin kimi qabaqcıl ölkələrin texnologiyalarından istifadə ediləcək müəssisədə istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da planlaşdırılır.

Söyüdlü (Zod) qızıl yatağının işlənməsinə icazə veriləcək

Bu, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin keçirilən iclasında müzakirə edilən "Söyüdlü (Zod) qızıl yatağının bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsində əksini tapıb.



Dövriyyədə olan ödəniş kartlarının sayı artıb

Banklar və "Azərpoçt" MMC sistemləri üzrə noyabr ayının sonunda dövriyyədə olan ödəniş kartlarının sayı ötən aya nəzərən 301 min ədəd artaraq 19 milyon 463 min ədəd təşkil edib.

Mərkəzi Bankdan AZƏRTAC-a bildirilib ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 17,5 faiz artıb. Ödəniş kartlarında artım debet kartları üzrə 19,7 faiz, kredit kartları üzrə 3,2 faiz təşkil edib.

Ödəniş kartlarının artması nağdsız ödənişlərin həcminə müsbət təsir göstərib. Belə ki, ay ərzində ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,4 dəfə artıb. 2024-ci ilin noyabr ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 6939 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 5978 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 957 milyon manatı POS-terminallar, 3,2 milyon manatı isə özünəxidmət terminalları vasitəsilə gerçəkləşdirilib. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 64 faizini təşkil edib.



Bank sektorunda son vəziyyətlə bağlı rəqəmlər açıqlanıb

2024-cü ilin noyabr ayı üzrə Statistik Bülleten Mərkəzi Bankın saytında yerləşdirilib.

Bank sektoru

Fəaliyyətdə olan bankların cəmi aktivləri 50 milyard 164.6 milyon manat, cəmi öhdəlikləri 43 milyard 662.6 milyon manat, balans kapitalı 6 milyard 502 milyard manat olmuşdur.

İlin əvvəlindən bankların cəmi aktivləri, cəmi öhdəlikləri və balans kapitalı müvafiq olaraq 2%, 1.3% və 7.2% artmışdır.

Kredit portfelinin artımı cari ilin noyabr ayında da davam etmişdir. Hesabat ayında bankların kredit portfeli 1.1% və ya 287.6 milyon manat artaraq 27 milyard 368.1 milyon manat olmuşdur.

Kredit portfelinin strukturu:

ı) biznes kreditləri – 53.9% (14 milyard 746.7 milyon manat);

ıı) istehlak kreditləri – 30.8% (8 milyard 422.9 milyon manat)

ııı) ipoteka kreditləri – 15.3% (4 milyard 198.6 milyon manat).

Cəmi kredit portfelində (BOKTlər və kredit ittifaqları daxil olmaqla) vaxtı keçmiş kreditlərin payı əvvəlki ilin müvafiq dövrünə nəzərən 0.2 faiz bəndi azalaraq 1.7% təşkil etmişdir.

Bankların öhdəliklərinin strukturunda ənənəvi olaraq depozit portfeli üstünlük təşkil edir – cəmi öhdəliklərin 80.6%-i və ya 35 milyard 192 milyon manat. Depozit portfelinin 60.6%-i (21 milyard 332.1 milyon manat) hüquqi şəxslərin, 39.4%-i (13 milyard 859.9 milyon manat) fiziki şəxslərin depozitlərindən (fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitləri istisna olmaqla) ibarətdir.

Fiziki şəxslərin əmanətlərinin 65.2%-i (9 milyard 34.8 milyon manat) milli valyutada, 34.8%-i (4 milyard 825.1 milyon manat) xarici valyutadadır.

Fiziki şəxslərin əmanət portfelinin 60.4%-i (8 milyard 371.4 milyon manat) müddətli əmanətlərdən ibarətdir. Fiziki şəxslərin müddətli əmanətləri noyabr ayında 0.7% və ya 56.6 milyon manat artmışdır.

Hüquqi şəxslərin tələbli depozitləri 15 milyard 833.8 milyon manat olmaqla, hüquqi şəxslərin cəmi depozit portfelinin 74.2%-ni təşkil etmişdir.

Fiziki şəxslərin əmanətlərinin dollarlaşması noyabr ayında əvvəlki ilin müvafiq dövrünə nəzərən isə 0.1 faiz bəndi azalaraq 34.1% təşkil etmişdir.

2024-cü ilin yanvar-noyabr aylarında banklar tərəfindən 966.5 milyon manat xalis mənfəət, 1 milyard 535.8 milyon manat məbləğində əməliyyat mənfəəti generasiya edilmişdir.

30 noyabr 2024-cü il tarixinə fəaliyyət göstərən 22 bankın filiallarının sayı 483, şöbələrinin sayı 88, ATM-lərin sayı 3,200 olmuşdur.

Hesabat ayında bank sektorunda çalışanların sayı 0.6% və ya 153 nəfər artaraq 25,219 (ilin əvvəlindən 7% və ya 1,650 əməkdaş) nəfər təşkil etmişdir.

Monetar sektor

Cari ilin noyabr ayında manatla geniş mənada pul kütləsi (M2) keçən ilin müvafiq dövrünə nəzərən 1.3% artaraq 34 milyard 639 milyon manat təşkil etmişdir.

Bank sektorunun xarici öhdəlikləri ilin əvvəlinə nəzərən 75.9 milyon manat artaraq 2 milyard 674 milyon manat təşkil etmişdir. Xarici öhdəliklərdəki qeyd olunan dəyişiklik əsasən qeyri-rezident bankların cəlb olunmuş qısamüddətli depozitlərin həcmindəki artım ilə əlaqədardır.

Ödənişlər sektoru

Banklar və "Azərpoçt" MMC sistemləri üzrə noyabr ayının sonunda dövriyyədə olan ödəniş kartlarının sayı ötən aya nəzərən 301 min ədəd artaraq 19 milyon 463 min ədəd təşkil etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 17.5% artmışdır.

Ödəniş kartlarında artım debet kartları üzrə 19.7%, kredit kartları üzrə 3.2% təşkil etmişdir.

Ödəniş kartlarının artması nağdsız ödənişlərin həcminə müsbət təsir göstərmişdir. Belə ki, ay ərzində ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1.4 dəfə artmışdır. 2024-ci ilin noyabr ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 6 milyard 939 milyon manat təşkil etmişdir. Həyata keçirilən nağdsız ödənişlərin 5 milyard 978 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 957 milyon manatı POS-terminallar, 3.2 miylon manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşdirilmişdir.

İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 64%-ni təşkil etmişdir.

Banklar və "Azərpoçt" MMC-nin ödəniş xidməti şəbəkələri üzrə dinamik artım müşahidə olunur. Belə ki, keçən ilin noyabr ayının sonu ilə müqayisədə bankomatların sayı 5%, POS-terminalların sayı 36.7% artmışdır.

Mənbə: marja.az

Naxçıvanda yeni istilik elektrik stansiyası tikiləcək

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Dövlət Neft Şirkəti (SOCAR) beynəlxalq təcrübəni nəzərə almaqla stansiyanın tikintisi üçün potensial tərəfdaş investorlarla danışıqlar aparılmasını, məsləhətçi şirkətlərin cəlb edilməsini, Texniki İqtisadi Əsaslandırmanın və digər layihə sənədlərinin hazırlanmasını və layihənin həyata keçirilməsi ilə bağlı yekun təkliflərin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla beş ay müddətində Nazirlər Kabinetinə təqdim olunmasını təmin etməlidir.

Nazirlər Kabineti İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə tikiləcək yeni istilik elektrik stansiyasının ötürücü şəbəkəyə qoşulması və bundan irəli gələn digər zəruri infrastrukturun təkmilləşdirilməsi üzrə işlərin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin layihənin həyata keçirilməsi mərhələsinə uyğun olaraq dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə (investisiya xərcləri) nəzərə alınmasını təmin etməli, Prezidentin Naxçıvanda səlahiyyətli nümayəndəliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Energetika Nazirliyi, SOCAR, "Azərenerji" ASC və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

"Azərenerji" "Azərişıq" ASC ilə birlikdə stansiyanın Naxçıvanın enerji sisteminə qoşulması, enerji sisteminin tənzimlənməsi və Muxtar Respublikanın daxili tələbatının ödənilməsi üçün zəruri olan elektrik enerjisi ilə bağlı təkliflərini Nazirlər Kabinetinə təqdim etməli, sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

26 dekabr 2024-cü il - 8 yanvar 2025-ci il

"ESG prinsipləri müxtəlif aspektlər baxımından bizneslər üçün çox əhəmiyyətlidir"



"Ətraf mühit, sosial və korporativ idarəetmə - qısaca desək, ESG yanaşması son dövrlərdə kifayət qədər geniş hərəkata çevrilib. ESG prinsipləri müxtəlif aspektlər baxımından bizneslər üçün çox əhəmiyyətlidir". Bunu KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən ***"Əmək münasibətləri, əməyin mühafizəsi və insan resursları ekoloji, sosial və korporativ idarəetmə yanaşmasının əsas istiqamətlərindən biri kimi"*** mövzusunda konfransda deyib.

Onun sözlərinə görə, ESG meyarlara riayət edilməsi müəssisələrin rəqabət qabiliyyətinin və ixrac potensialının artırılmasına, eləcə də xarici investisiyaların cəlb edilməsinə imkan verir: "ESG yanaşmasının əsas elementlərindən biri sosial məsələlərdir ki, bu da əmək münasibətləri və insan resurslarını da əhatə edir. Bu baxımdan, ESG-nin tətbiqi işçilərin iş yerində saxlanılmasına, məhsuldarlığın yüksəldilməsinə və istedadların işə cəlb edilməsinə imkan verir. Araşdırmalar göstərir ki, dayanıqlı və sosial məsuliyyət məsələlərinə diqqət yetirən şirkət işçilər üçün arzuolunan iş yeri hesab edilir".

O.Məmmədov qeyd edib ki, KOBİA ESG prinsiplərinin təşviqində yaxından iştirak edir. Belə ki, təqribən 2 il bundan əvvəl Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın tərkibində KOBİA tərəfindən rəhbərlik edilən ESG standartları üzrə altqrup yaradılıb.

Azərbaycanda xəzinədarlıq hesabları Xankəndi və Ağdərəni də əhatə edib

Azərbaycanda dövlət xəzinədarlıq orqanlarında vergi və digər büdcə daxilolmalarının köçürülməli olduğu xəzinə hesablarının rekvizitləri yenilənib.

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib.

Məlumata görə, Maliyyə Nazirliyinin Xankəndi şəhəri və Ağdərə rayonu üzrə xəzinə hesab kitablarının açılması barədə məktubuna əsasən, "Büdcə rekvizitləri barədə məlumatın verilməsi" xidmətində "Vergi və digər büdcə ödənişləri köçürülən dövlət xəzinədarlıq orqanlarındakı hesablar" üzrə mövcud məlumatlar yenilənib.

Həmçinin dövlət xəzinədarlıq orqanlarında vergi və digər büdcə daxilolmalarının köçürülməli olduğu xəzinə hesablarının rekvizitlərinə Xankəndi və Ağdərə yerli xəzinədarlıq orqanlarının hesabları əlavə edilib.

Minimum əməkhaqqı və minimum əmək pensiyası müəyyən edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam imzalayıb.

Sərəncam ilə minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilib.



Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

- əmək pensiyasının minimum məbləğinin 2025-ci il fevralın 1-dən 320 manata çatdırılmasına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;
- sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;
-Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb.

Bu Sərəncam 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

Qeyd edək ki, hazırda minimum aylıq əməkhaqqı 345 manatdır.

DOĞMA DİYARLARA HƏYAT QAYIDIR – "Ağdam Rezidens"



İşğaldan azad edilmiş doğma torpaqlara həyat yenidən qayıdır. Qarabağın qapısı adlandırılan Ağdamın mərkəzində inşa edilmiş ilk yaşayış kompleksinin davamı olaraq yeni yaşayış kompleksinin tikintisinə start verilib. Müasir memarlıq, əlverişli yerləşmə, rahat mənzillər, yüksək infrastruktur Qarabağın parlaq gələcəyinə yatırım imkanı yaradır.

Yenidən bərpa edilərək Azərbaycanın ən gözəl şəhərlərindən biri, Qarabağın isə incisinə çevriləcək Ağdamda yerləşən bu yaşayış kompleksi geniş infrastruktur, zövqlə dekorasiya edilmiş evlərlə həyat keyfiyyətinizi artıraraq əvəzolunmaz rahatlıq bəxş edəcək. Tikinti sektorunun ən sonuncu həllərini istifadə edən, zamanın sınağına tab gətirən layihələri təqdim etmək üçün innovativ alətlər və metodologiyalardan istifadə edən, həmçinin infrastruktur olaraq da sakinlərinin ehtiyaclarını uzağa getmədən bir kompleksdə toplayan "Aghdam Residence" şəhərin mərkəzi yolları üzərində, Pənahəli xanın imarəti və Bayraq Meydanının yaxınlığında yerləşir.

Qeyd edək ki, "Aghdam Residence" Azərbaycanın ən böyük daşınmaz əmlak şirkətlərindən biri olan "PMD Group" şirkətlərinə məxsus layihədir. Korporativ sosial məsuliyyəti yüksək tutan, öz köklü təcrübəsi ilə seçilən "PMD Group" Ağdamın mərkəzində salınan ilk yaşayış mərkəzini yaratmaqla vətənimizə və xalqımıza xidmət edir. Bu yaşayış kompleksi Qarabağın və bilavasitə Ağdam şəhərinin yenidən qurulması, abadlaşdırılması və inkişafının təmin olunması istiqamətində atılan ilk addımlardandır.

Kibertəhlükələr və kibermədəniyyətin yaranmasına olan ehtiyacın əhəmiyyəti





Bəhruz Əliyev,
İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı,
Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti

(əvvəli ötən sayımızda)

Hüquqi və tənzimləyici təsirlər

Məlumatların sızması təşkilatlar üçün hüquqi məsuliyyətləri artırır və cərimələrə səbəb ola bilər. Eyni zamanda, hökumət orqanları kibertəhlükəsizlik standartlarını artırmaq üçün yeni qanunvericilik və tənzimləmələr tətbiq edə bilərlər.

İctimai məlumatlandırma

İstifadəçilər onlayn təhlükəsizlik məsələlərinə daha çox diqqət yetirməyə başlayır, daha güclü parol və iki faktorlu identifikasiya kimi tədbirlər görürlər. Təşkilatlar və fərdlər kibertəhlükəsizlik təhsili və maarifləndirmə tədbirlərini artırırlar.

İqtisadi təsirlər

Kibertəhlükəsizlik insidentləri şirkətlərin bazar dəyərinə mənfi təsir edə bilər. İstifadəçilərin və investorların etibarı azaldıqda, bu, qiymətlərin düşməsinə səbəb ola bilər.

Ümumilikdə, kibertəhlükəsizlik insidentləri fərdlər və təşkilatlar üçün ciddi nəticələr doğurur. Bu hadisələr kibertəhlükəsizliyin əhəmiyyətini artırır və onlayn mühitdə daha ehtiyatlı davranmağı təşviq edir. Təşkilatlar gələcəkdə bu cür insidentlərin qarşısını almaq üçün mütəmadi olaraq təhlükəsizlik tədbirlərini yeniləməli və gücləndirməlidirlər.

Phishing Trends Report, Statista, Cybersecurity Ventures, CyberEdge Group kimi müxtəlif etibarlı mənbələrdən olan məlumatlar xüsusi diqqət çəkir:

- ***2021-ci ildə ransomware hücumları 2020-ci ilə nisbətən 150% artdı. 2022-ci ildə isə hücumların sayı 2021-ci illə müqayisədə daha da artdı;***
- ***2021-ci ildə 22 milyondan çox məlumat sızması baş verdi, bu da 2020-ci ildən 10% çoxdur;***
- ***2021-ci ildən 2025-ci ilə qədər dünyada kibertəhlükəsizlik xərclərinin 10% artacağı proqnozlaşdırılır. 2025-ci ildə bu xərclərin 300 milyard dolları keçəcəyi gözlənilir;***
- ***2022-ci ildə phishing hücumları 2021-ci illə müqayisədə 61% artdı. Hər beş hücumdan biri phishing taktikasını istifadə edir;***
- ***2021-ci ildə dünya üzrə kibertəhlükəsizlik insidentlərinin sayı 60% artdı;***
- ***Kibertəhlükəsizlik hadisələrinin qlobal iqtisadi ziyanı 2020-ci ildə 945 milyard dollar, 2021-ci ildə isə 1 trilyon dolları keçmişdir;***
- ***2022-ci ildə təşkilatların 83%-i kibertəhlükəsizlik məsələlərini prioritet kimi qəbul edir, lakin yalnız 27%-i kifayət qədər hazırlıqlı olduqlarını düşünür.***

Bu statistikalar kibertəhlükələrin artdığını və təşkilatların və fərdlərin bu məsələyə daha ciddi yanaşmağının lazım olduğunu göstərir. Kibertəhlükəsizlik sahəsindəki dəyişiklik və inkişaf hər zaman diqqət mərkəzində olmalıdır.

Bizi gələcəkdə fərqli mühüm amillər gözləyir. Çalışmalıyıq ki, bu amillərin gəlişinə hazır olaq. Bəzi amilləri qeyd etmək mümkündür.

Süni intellekt və maşın öyrənmə texnologiyaları

Süni intellekt (AI) və maşın öyrənmə (ML) texnologiyaları, kibertəhlükəsizlik sistemlərinin daha effektiv və proaktiv olması üçün əsas rol oynayacaq. Bu texnologiyalar anomaliyaları daha sürətli aşkar etməyə, məlumatları analiz etməyə və real vaxtda cavab verməyə imkan verəcək.

AI potensial hücumların simulyasiyası və test edilməsi üçün istifadə edilə bilər, bu da mütəxəssislərə zəif nöqtələri müəyyən etməyə kömək edəcək.

Proaktiv təhlükəsizlik

Təşkilatlar Zero Trust prinsipini qəbul edərək, bütün mühitlərdə riskləri minimuma endirməyə çalışacaqlar. Bu model istifadəçi və cihazların etibarlılığına şübhə ilə yanaşmağı və hər hansı bir daxil olma tələbini doğrulamağı tələb edir. Davamlı monitorinq sistemləri şəbəkə və sistemlərin real vaxtda analiz edilməsini təmin edəcək, bu da müdaxilələrin dərhal aşkarlanmasına kömək edəcək.

Bulud (Cloud) təhlükəsizliyi

Bulud xidmətlərinin istifadəsi artdıqca, bulud təhlükəsizliyi daha da əhəmiyyətli hala gələcək. Təşkilatlar bulud mühitində məlumatların və tətbiqlərin təhlükəsizliyini təmin etmək üçün yeni alətlər və prosedurlar tətbiq edəcəklər. Müxtəlif bulud provayderləri arasında resursları bölüşdürərək riskləri azaltmağa çalışacaqlar. Bu, bir provayderdə baş verən bir insidentin bütün sistemə təsir etməsinin qarşısını alacaq.

Kibertəhlükəsizlik tənzimləmələri

Hökumətlər və tənzimləyici orqanlar kibertəhlükəsizlik standartlarını daha da sərtləşdirəcək. Bu, təşkilatların kibertəhlükəsizlik tədbirlərini artırmaq məcburiyyətində qalacağı anlamına gəlir. Təşkilatlar məlumatların qorunması və şəxsi məlumatların təhlükəsizliyi ilə bağlı daha ciddi hüquqi məsuliyyətlərlə üzləşəcəklər.

Məlumatların gizliliyi

Məlumatların gizliliyi ilə bağlı narahatlıqlar artdıqca, təşkilatlar daha şəffaf olmağa və istifadəçilərin məlumatlarını daha ciddi şəkildə qorumağa çalışmalıdır. Kibertəhlükəsizlik sahəsində təhsilin artırılması, fərdi biliklərin yüksəldilməsi, maarifləndirmə daha önəmli olacaq. İşçiləri kibertəhlükəsizlik mövzusunda mütəmadi olaraq məlumatlandıran proqramlar hazırlanacaq.

IoT (İnternetə qoşulan əşyalar) təhlükəsizliyi

IoT cihazlarının istifadəsi artdıqca, bu cihazların təhlükəsizliyi ilə bağlı məsələlər də gündəmə gələcək. Təşkilatlar IoT cihazlarının şəbəkəyə inteqrasiyasını və təhlükəsizliyini təmin etmək üçün yeni standartlar və protokollar inkişaf etdirəcəklər. IoT cihazlarının sındırılması ilə bağlı risklərin artması, şəbəkələrin gücləndirilməsinə və daha etibarlı infrastrukturların yaradılmasına səbəb olacaq.

Təhlükəsizlik və iqtisadiyyat

Kibertəhlükəsizlik sektoru daha çox iş yeri yaradacaq və yeni texnologiyaların inkişafı ilə iqtisadi artıma imkan yaradacaq. Kibertəhlükəsizlik sahəsində startapların artması innovativ həllərin ortaya çıxmasına və bazarın daha dinamik olmasına səbəb olacaq.

Təşkilatlar dəyişikliklərə hazırlıqlı olmalı və öz təhlükəsizlik strategiyalarını mütəmadi olaraq yeniləməlidirlər. Kibertəhlükəsizlik yalnız texniki məsələlər deyil, eyni zamanda təşkilat mədəniyyətinin bir hissəsi olmalıdır. Bu sahədə davamlı inkişaf və adaptasiya, gələcəkdə uğurlu bir təhlükəsizlik mühitinin yaradılması üçün vacibdir. Kibermədəniyyətin formalaşması gözlənilməndir. Ümid edirik, gələcək üçün atılacaq addımlar özünü gələcəkdə daha yaxşı göstərəcək.

Sumqayıtda İnnovasiya Mərkəzi açılıb

Dekabrın 23-də Sumqayıt İnnovasiya Mərkəzinin açılış mərasimi olub. Mərkəzi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi təsis edib.

Qeyd edək ki, Sumqayıt İnnovasiya Mərkəzi ümumi ərazisi 750 kvadrat metrdən ibarət olan ofis sahələri, kovörkinq, kompüter və görüş otaqları, prototipləşdirmə laboratoriyası, toplantı və təqdimat otaqları, tədbir zalları və istirahət zonalarını özündə birləşdirir. Mərkəzdə müxtəlif innovasiyayönümlü layihələr həyata keçiriləcək. Startaplar inkubasiya və akselerasiya proqramlarında iştirak etmək, layihələrini təqdim etmək, investorlarla görüşlər keçirmək və tərəfdaşlıq yaratmaq imkanı əldə edəcəklər. Bu məqsədlə təchizatçı universitetlərlə və texnoparklarla birgə fəaliyyət nəzərdə tutulub.





Zakir İbrahimov 3-cü "Yüksəliş" müsabiqəsinin qalibi ilə mentorluq proqramının yekunlarına dair görüş keçirib



"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov 3-cü "Yüksəliş" müsabiqəsinin mentorluq proqramı çərçivəsində layihə qaliblərindən biri olan Vüqar Mamedov ilə yekun görüşünü keçirib.


Görüşdə 1 illik fərdi inkişaf planı əsasında görülmüş işlər təhlil edilib, proqramın nəticələri ətraflı müzakirə edilib.

Z.İbrahimov mentorluq proqramının uğurla başa çatması münasibətilə Vüqar Mamedovu təbrik edib, qarşılıqlı faydalı əməkdaşlıqdan məmnunluğunu, idarəçilik sahəsində gənc kadrların potensialının üzrə çıxarılması, istedadlı kadr kimi önə çəkilməsi istiqamətində faydalı təşəbbüslərə hər zaman dəstək verməyə hazır olduğunu bildirib və ona gələcək karyera inkişafında uğurlar arzu edib.

V.Mamedov proqram müddətində mentorun karyera planlaması, effektiv idarəçilik, iş və həyat balansı, emosional zəka, fors-major hallarda effektiv qərar qəbuletmə, etik prinsiplər və peşəkar standartlar, böhran menecmentinə dair məsləhətlərindən faydalandığını, qazandığı nəzəri və praktiki təcrübə, biliklərin onun şəxsi inkişafında və karyerasında təsiredici rola malik olacağına əminliyini ifadə edib.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu ildə imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis edilib.


Gömrük xətti ilə büdcə daxilolmaları 6 milyard manatı ötüb



Azərbaycanda gömrük orqanlarının xətti ilə büdcə daxilolmaları 5% artıb.

2024-cü ilin yanvar-noyabr aylarında gömrük xətti ilə büdcə daxilolmaları 6 milyard 2 milyon 253 min manat təşkil edib.Bu barədə Dövlət Gömrük Komitəsindən bildirilib. Məlumata görə, gömrük xətti ilə büdcə daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 5% artıb.





О геноциде белорусского народа в годы Великой Отечественной войны (материал Национальной Академии наук Беларуси)

С целью колонизации стран Восточной Европы, уничтожения и закабаления ее населения фашистской Германией в полном соответствии с политическими установками Гитлера был разработан Генеральный план «Ост». В основу плана легла расовая человеконенавистническая теория, возведённая в ранг государственной политики, так называемая «Новая территориальная политика» гитлеровской Германии.

Истинные масштабы геноцида белорусского народа, заложенные в генеральном плане «Ост», можно отчётливо увидеть через призму тех документов, в которых сохранились оценки положений плана, сделанные гитлеровскими функционерами.

Главный инициатор плана «Ост» Гиммлер 16 сентября 1942 г. на совещании высших командиров СС и полиции в своей полевой ставке «Хегевальд» следующим образом определял судьбу оккупированных белорусских земель: «Мы (Германия) должны германизировать и заселить Беларусь».

В ходе войны в соответствии с установками плана «Ост» нацистские структуры разрабатывали краткосрочные программы по уничтожению белорусского населения. Среди трофейных немецких документов в Центральном Государственном историческом архиве Латвийской ССР (Фонд 69, оп. 1а, д. 3, Л. 167) выявлена карта германской колонизации Прибалтики и Беларуси. На этом секретном документе от 17 ноября 1942 г. имеется штамп «Рейхскомиссариат Остланд. Отдел II. Территория». Согласно карте-схеме и приложению к одному из вариантов (четырёхлетнего) плана, Беларусь от западной границы до линии Гродно – Слоним, южную часть Брестской области, районы Пинска, Мозыря и остальную часть Полесья по линии Пружаны, Ганцевичы, **Паричи, Речица предполагалось полностью очистить от местного населения и поселить там только немецких колонистов.** На карте обозначена территория для поселения колонистов, нанесены запланированные опорные пункты, новые пути сообщений. Исходя из информации, имеющейся на карте, указано количество населения, которое предполагалось оставить в городах для обслуживания колонистов. Так, в Минске намечалось поселить 50 тыс.



колонистов и для их обслуживания оставить 100 тыс. местных жителей, в Гомеле – соответственно 30 тыс. и 50 тыс., в Могилёве – 20 тыс. и 50 тыс., в Витебске – 20 тыс. и 40 тыс. и т.д. Фотокопия картысхемы имеется в фондах Белорусского государственного музея Великой Отечественной войны.

С целью реализации документа под названием «Некоторые соображения рейхсфюрера СС Гиммлера об обращении с местным населением восточных областей» ещё до нападения на СССР было издано множество документов – приказов, распоряжений, инструкций, беспрецедентных по своей бесчеловечности и жестокости. Фактически эти и ряд других документов возводили зверства по отношению к местному населению в ранг государственной политики гитлеровской Германии и освобождали германских военнослужащих от ответственности за преступления. Региональными гражданскими сферами власти являлись рейхскомиссариаты.

План их создания был подготовлен Розенбергом в сотрудничестве с МИД Германии ещё в мае 1941 г. В указе Гитлера от 17 июля 1941 г. «О полицейской охране оккупированных восточных областей» было определено, что вся полицейская власть на оккупированной территории сосредотачивалась в руках рейхсфюрера СС Гиммлера. Согласно указу, Гиммлер направлял не только деятельность СС и полиции, но и получил неограниченные полномочия в проведении политики колонизации и массового истребления населения, что и было в основе плана «Ост». До создания органов немецкого оккупационного гражданского управления полицейскую власть на территории Беларуси возглавлял высший командующий СС и полиции группы армий «Центр» Бах-Зелевски и шеф айнзатцгруппы «Б» Артур Небе.

В связи с быстрым продвижением немецких войск на восток, большим количеством военнопленных, необходимостью проверки трудоспособного мужского населения нацисты стали ускоренно создавать систему специальных лагерей для сбора военнопленных и изоляции «враждебных элементов». Сотни тысяч людей стали узниками более 260 концлагерей, созданных на территории Беларуси. Лагеря были основным средством осуществления геноцида.

На совещании в Ставке 16 июля 1941 г. Гитлер приказал не рассматривать как солдат-фронтовиков всех советских военнопленных и беспощадно их уничтожить.

Один из таких лагерей по распоряжению командующего 4-й армией Г. Клюге был создан уже в начале июля 1941 г. вблизи Минска в Дроздах. Около 140 тыс. человек военнослужащих, а также гражданского мужского населения Минска под предлогом перерегистрации нацисты загнали за колючую проволоку. Гитлеровский чиновник Дорш докладывал рейхсминистру Розенбергу, что в этом лагере пленные загнаны в тесное пространство и едва могут пошевелиться, а огнестрельное оружие охрана лагеря применяла беспрерывно и беспощадно.

25 июля 1941 г. в д. Колбасино Гродненского района началось строительство шталага **№ 353** для массового уничтожения мирных советских граждан и военнопленных. Территория 50 га была обнесена колючей проволокой, вокруг были поставлены пулемётные вышки. Заключённых удерживали в 96 землянках и кормили отходами. В лагере постоянно находилось около 36 тыс. человек. Ежедневно от истязаний и голода умирали сотни заключённых. За время существования лагеря в нём было уничтожено до 18 тыс. человек.

Массовый кровавый террор осуществляли войска СС (охранные отряды) и СА (штурмовые отряды), полиция безопасности и служба безопасности СД, ГФП (тайная полевая полиция), охранная полиция, полиция поддержания порядка, криминальная полиция, контрразведывательные органы «Абвера», жандармерия, специальные полицейские подразделения, вооружённые силы вермахта, охранные дивизии. В целом в 1941–1942 гг. немецко-фашистский оккупационный аппарат, сформированный нацистами в Беларуси, опирался на военнополицейские силы численностью около 160 тыс. чел., не считая частей, которые привлекали в ряде случаев с фронта для борьбы с партизанами.

В соответствии с указанием Гитлера от 27.06. 1941 г., оккупационным властям запрещалось заниматься судопроизводством и ставилась задача наводить страх на население всевозможными средствами. Из членов СС, СА, СД, ГФП, гестапо, криминальной и охранной полиции были созданы особые оперативные группы (айнзатцгруппы). Перед ними ставилась задача сокращения численности населения путём массового уничтожения, прежде всего проведения зачистки захваченной территории от советских партийных и комсомольских работников, актива, сотрудников НКВД, евреев, а также борьбы с проявлениями антигерманской деятельности и пр. На оккупированной территории Беларуси зверствовала специальная оперативная группа «Б», сообщившая в отчёте за октябрь 1941 г. о ликвидации 37 180 человек. Всего до 15.12. 1942 г. айнзатцгруппа «Б» уничтожила 134 298 человек. В конце 1942 г. эти особые оперативные группы были формально ликвидированы, войдя в состав тыловых войск.

Осуществляя свою преступную политику геноцида на территории Беларуси, гитлеровцы с первых дней оккупации развернули кровавый террор против еврейского населения. Для массового уничтожения евреев нацисты создавали гетто – специально отведённые районы в населённых пунктах. 19 июля 1941 г. распоряжением полевого коменданта гетто было создано в Минске. В течение пяти суток со времени опубликования распоряжения всё еврейское население города обязано было переселиться в отведенный район. Здесь на небольшой территории нацисты собрали 100 тыс. человек. Всего на оккупированной территории нацисты создали около 70 гетто. Кроме минского (крупнейшего на оккупированной территории Беларуси), гетто существовали в Бресте, Гомеле, Гродно, Могилёве, Борисове, Полоцке, Жлобине и др..

За годы оккупации нацисты совершали на территории Беларуси массовое и зверское уничтожение людей, варварское разрушение материальных, культурных и научных ценностей. Таким образом, действия германских оккупантов на востоке, в том числе и на территории Беларуси, были заранее обдуманы, затем разработаны в таких документах, как генеральный план «Ост», «Инструкция об особых областях к директиве № 21 (план «Барбаросса»)», утверждённой 13 мая 1941 г., распоряжение «О военной подсудности в районе «Барбаросса» и особых полномочиях войск» от 13 мая 1941 г., «Двенадцать заповедей поведения немцев на востоке и их обращение с русскими» от 1 июня 1941 г. Фактически эти и ряд других документов освобождали германских военнослужащих от ответственности за преступления и возводили зверства по отношению к местному населению в ранг государственной политики гитлеровской Германии.

(продолжение на следующем номере)

Азербайджан на COP29 дал новый импульс поддержке малых островных развивающихся государств

Под председательством Азербайджана на 29-й Конференции сторон Рамочной конвенции ООН об изменении климата (COP29) проблемы малых островных развивающихся государств (SIDS) получили должное внимание.

Об этом в эксклюзивном интервью Trend заявила генеральный секретарь Организации Содружества наций Патрисия Скотланд.

Оценивая климатический саммит в Баку, генеральный секретарь отметила, что конференция стала как многообещающим событием, так и серьезным испытанием реальности.

"Мы рады, что был достигнут прогресс", - отметила она, имея в виду увеличение ежегодного целевого показателя финансирования борьбы с изменением климата втрое до 300 миллиардов долларов к 2035 году и введение в действие Фонда для реагирования на потери и ущерб. Однако, по ее словам, для уязвимых стран прогресс остается медленным.

"SIDS и наименее развитые страны находятся на переднем крае кризиса, в возникновении которого они сыграли незначительную роль. Для них переговоры по климату — это борьба за существование. Их голоса звучали в Баку, призывая не только к обязательствам, но и к выполнению обязательств - и они правы, требуя этого", - сказала она.

Патрисия Скотланд подчеркнула важность первого саммита лидеров COP для SIDS, организованного председательствующей на COP29 страной и Азербайджаном, на котором их проблемы были выдвинуты на первый план.

Она также отметила, что на пути к COP30 необходимо сосредоточиться на возобновлении энергии и более решительных действиях. Патрисия Скотланд отметила, что за последние девять лет CCFAH привлек более 380 миллионов долларов, и еще 500 миллионов находятся в процессе получения.

Она также подчеркнула заявление Президента Азербайджана Ильхама Алиева о выделении 10 миллионов долларов на поддержку совместных проектов с Содружеством в SIDS.

Доходы от управления средствами Государственного нефтяного фонда превысили $15 млрд.

Основанный в 1999 году Государственный нефтяной фонд Азербайджанской Республики (ГНФАР) имеет текущие активы, превышающие 60 миллиардов долларов США, что эквивалентно примерно 80 процентам экономики страны.

Об этом заявил исполнительный директор Фонда Исрафил Мамедов на ежегодном собрании, посвященном 25-летию учреждения, сообщает Trend со ссылкой на Фонд.


Он отметил, что доходы от управления средствами Фонда уже превысили 15 миллиардов долларов США.

“Эти цифры отражают инвестиционную политику Государственного нефтяного фонда, основанную на успешной



модели деятельности, стратегическом подходе и механизме управления рисками, соответствующем международным стандартам. Фонд не только улучшает финансовые результаты, но и играет ключевую роль в устойчивом развитии, поддерживая интересы будущих поколений. Он инвестирует в проекты, которые укрепляют позиции Азербайджана на глобальной экономической арене”, - отметил он.

На мероприятии также выступили руководители различных структурных подразделений Фонда, которые рассказали о достижениях ГНФАР за 25 лет.



"Ölkə əhalisinin sağlamlığının qorunmasında xüsusi tibb xidmətlərin rolu" mövzusunda Dəyirmi Masa keçirilib





Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin yaradılmasının 20 illiyinə həsr edilmiş "Ölkə əhalisinin sağlamlığının qorunmasında xüsusi tibb xidmətlərinin rolu, qarşılıqlı əməkdaşlıq və perspektivlər" mövzusunda Dəyirmi Masa keçirilib.

Tədbirdə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov bildirib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirilən davamlı inkişaf strategiyasının təməlində duran əsas prinsiplərdən biri də ölkə əhalisinin sağlamlığının qorunması, səhiyyə xidmətləri ilə tam təmin olunmasıdır. O da qeyd olunub ki, bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində səhiyyə infrastrukturunun müasir tələblərə uyğun şəkildə qurulması, xidmətlərin əlçatanlığının təmin edilməsi, yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində mühüm işlər görülüb.

Dövlət Görük Komitəsinin Tibbi Xidmət İdarəsinin də ölkə əhalisinin və gömrük əməkdaşlarının sağlamlığının qorunması, dövlət sərhədindən buraxılış məntəqələrində sanitar-epidemioloji nəzarətin səmərəli təşkili, tibb sahəsində qabaqcıl beynəlxalq təcrübələrin öyrənilərək paylaşılmasına mühüm töhfə verdiyi vurğulanıb.

Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov "Dövlət Gömrük Komitəsinin Tibbi Xidmətinin ölkə səhiyyəsinin inkişafına töhfəsi" mövzusunda çıxış edərək tibb xidmətinin fəaliyyəti, əldə olunan nailiyyətlər və hədəflər barədə məlumat verib.

Daha sonra Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin rəisi, millət vəkili Rəşad Mahmudov "Davamlı təhsil sahəsində Elmi-Təcrübi və Tədris Mərkəzinin təcrübəsi və qurumlarla əməkdaşlıq", idarə rəisinin müavinləri İsmayıl Əfəndiyev, Şahlar Mirqasım "Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin həyata keçirdiyi sosial tədbirlərin vacibliyi", "Dövlət sərhədlərinin sanitariya mühafizəsində qurumlararası əməkdaşlıq və perspektivlər", Fövqəladə Hallar Nazirliyinin Tibb xidmətinin rəisi Vəfa Dadaşova isə "Fövqəladə halların idarə olunmasında ixtisaslaşmış tibb xidmətlərinin rolu və mövcud təcrübə" mövzusunda təqdimatlarla çıxış ediblər və müzakirələr aparılıb.

Dilarə Zamanova,
Mərkəzi Gömrük Hospitalının
PR mütəxəssisi

Dondurucunun qida tullantılarını azaltmaq potensialı araşdırılıb



ABŞ-də aparılan yeni bir tədqiqat göstərir ki, ev təsərrüfatlarında dondurucu istifadə etməklə qida tullantılarının miqdarını əhəmiyyətli dərəcədə azaltmaq mümkündür. Araşdırmaya görə, qidaların dondurulması onların saxlanma müddətini uzadır və beləliklə, israfın qarşısını alır.

AZƏRTAC "phys.org" portalına istinadla xəbər verir ki, "British Food Journal"ında dərc olunan araşdırmanın müəllifləri Ohayo Dövlət Universitetinin kənd təsərrüfatı və qida iqtisadiyyatı üzrə mütəxəssisləridir.

Tədqiqatın əsas müəllifi, alim Lei Xu qeyd edib ki, dondurucu istifadə qida tullantılarının miqdarını azaltmaq üçün effektiv bir üsuldur. O vurğulayıb ki, evdə dondurmaya malik ev təsərrüfatları, digər ev təsərrüfatlarına nisbətən daha az qida tullantısına sahibdir.

Tədqiqatda qida tullantılarının iqtisadi və ekoloji fəsadlarına diqqət yetirilib. ABŞ-də israf edilən qidaların 90 faizdən çoxu poliqonlara gedir ki, bu da istixana qazı emissiyalarına səbəb olur. L.Xu və həmkarları Ran Li və Brayan Roe hesab edirlər ki, ev təsərrüfatlarını dondurucu istifadəsinə təşviq etmək bu problemə əhəmiyyətli həll ola bilər. Tədqiqat 2022-ci ildə 1067 ev təsərrüfatı arasında keçirilmiş Milli Məişət Qida Tullantılarının İzlənməsi Sorğusuna əsaslanıb. Sorğuda iştirakçılar son yeddi gündə atdıqları qidaların dondurulmuş faizini və dondurulmuş məhsulları alıb-almadıqlarını bildiriblər. Nəticələrə görə, ABŞ ev təsərrüfatlarının 85 faizi dondurulmuş qidalar alır, onların 55 faizi isə tullantıları azaltmaq üçün dondurulmuş qida seçdiyini bildirib. Dondurulmuş qida tullantılarının əsas kateqoriyaları arasında ət (20 faiz), tərəvəzlər (22 faiz), kartof və taxıl (15 faiz) üstünlük təşkil edib. Maraqlıdır ki, dondurulmuş qidaların təxminən 30 faizi dondurucudan atılıb. Tədqiqatçılar bunu istehlakçıların qida saxlama təcrübələrinin yetərsiz olması ilə əlaqələndirir. Araşdırmanın müəllifləri qeyd edir ki, istehlakçılar arasında dondurucu istifadəsi və qida saxlama texnikaları barədə maarifləndirmə artırılmalıdır.

Tədqiqat, həmçinin ABŞ-nin ərzaq təhlükəsizliyi problemi ilə mübarizə üçün dondurucu istifadəsinin potensialını vurğulayır. Bu, yalnız tullantıları azaltmaqla kifayətlənmir, həm də iqtisadi və ekoloji baxımdan mühüm faydalar təmin edir.

Araşdırma qida tullantılarını azaltmaq və davamlı istehlak vərdişlərini təşviq etmək üçün yeni imkanlar təqdim edir.



Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500